# Dünya ictimaiyyəti bəzi beynəlxalq təşkilatların ədalətsiz mövqeyi ilə bir daha tanış oldu



***Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində Brüsselə işgüzar səfəri zamanı keçirdiyi görüşlərdə və mətbuat konfransındakı qətiyyəti, həmçinin İspaniya və İtaliyanın aparıcı mətbu orqanlarına müsahibələrində səsləndirdiyi fikirlər ölkəmizin mövqeyini bir daha dünyaya nümayiş etdirdi. Möhtərəm Prezidentimiz Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsinin, dünyanın qüdrətli dövlətlərinin, o cümlədən, nüfuzlu təşkilatların bu ədalətsizliyə laqeyd münasibətindən, düşmənin törətdiyi təxribatların cavabı olaraq, Azərbaycan Ordusu tərəfindən diz çökdürülməsi və postmüharibə dövründə görülən işlər barəsində ətraflı məlumat verdi. Dövlət başçımız bu dəfə də münaqişənin 30 ilə yaxın davam etməsindəki ədalətsizlikdən danışdı və ikili standartlardan hələ də əl çəkməyən beynəlxalq təşkilatları sərt tənqid etdi. Prezident İlham Əliyevin Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində bu məqamlar diqqəti daha çox cəlb edir. Bu barədə danışan Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə dedi:***

– İstər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə Prezident İlham Əliyev dünyanın aparıcı kütləvi informasiyaları üçün həmişə açıq olub. Xatırladım ki, İkinci Qarabağ müharibəsi başlanan gündən dünyanın aparıcı media nümayəndələri dövlət başçımızdan müsahibə almaq üçün ölkəmizə üz tutmuşdu. Söz yox ki, onların arasında xüsusi öyrədilmiş əməkdaşlar da var idi və müharibənin başlanmasında ölkəmizi ittiham etmək istəyirdilər. Lakin dövlət başçımız belə təxribatçı müxbirlərə əsl "master klas" keçdi. Böyük təmkinlə, səbirlə, müdrikliklə onların cavabını verdi və təxribatçı olduqlarını mədəni şəkildə başa saldı. Dünyanın 30-dan çox aparıcı kütləvi informasiya vasitəsinə müsahibə verən möhtərəm Prezidentimiz Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsindən, başqa dövlətlərin ərazisi hesabına "böyük Ermənistan" yaratmaq iddiasından, bu ədalətsizliyə laqeyd yanaşan beynəlxalq təşkilatların qərəzli münasibətindən ətraflı söhbət açdı. Dünya ictimaiyyəti bu müharibənin başlanılmasında əsas təqsirkarın Ermənistan və 30 il ərzində onun işğalçılıq siyasətinə göz yuman qərəzli beynəlxalq təşkilatlar olduğunu daha yaxından bildilər. Əgər bu müddət ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr icra olunsaydı, ikili standartlar, islamofobiya dayandırılsaydı və ATƏT-in Minsk qrupu üzərinə götürdüyü vəzifənin həllində səy göstərsəydi, bu münaqişə qanlı müharibəyə çevrilməzdi.

***– Söhbət ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən düşmüşkən, xatırladım ki, dövlət başçımız İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində bu məsələni bir daha diqqətə çatdırdı.***

– Bəli, qəzetin əməkdaşının Minsk qrupunun fəaliyyəti ilə bağlı sualına cavabında möhtərəm Prezidentimiz ATƏT-in Minsk qrupunun üzərinə götürdüyü missiyanı yerinə yetirməməsini kəskin tənqid etdi. Dedi ki, Minsk qrupunun fəaliyyəti uğursuz idi: "Əgər Minsk qrupunun həmsədrləri – dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz?".

Dövlətimizin başçısı bildirdi ki, Minsk qrupu 1992-ci ildə fəaliyyətə başladı və üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin, istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə isə sıfra bərabər olub. Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Dünya ictimaiyyətinə də bəllidir ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur və olunub. Bəs işğalçı Ermənistana qarşı niyə tətbiq olunmadı? Niyə bu qədər dəhşətli terror hadisələri törədən, günahsız insanları amansızcasına qətlə yetirən Ermənistana sanksiyalar tətbiq olunmadı? Dövlət başçımızın qeyd etdiyi kimi, yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma.

Onu da qeyd edim ki, nüfuzlu beynəlxalq təşkilatların bu ədalətsizliyi, ikili standartlardan, islamofobiyadan əl çəkməmələri bu gün də müşahidə olunmaqdadır. Müxbirin dövlət başçımıza "Avropa İttifaqı bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etdi. Ukraynaya da 2 milyard dollara yaxın yardım ayrılacaq. Səhv etmirəmsə, Azərbaycana isə sadəcə, 140 milyon avro ayrılacaq. Yəni, burada çox böyük fərq var. Sizcə, nə üçün belədir? Belə bir qərar haradan qaynaqlanır?" – sualını cavablandıran möhtərəm Prezidentimizin "Bu, bir çox müşahidəçiləri təəccübləndirən fakt oldu və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz oldu"– deməsi, əslində, bu gün də ölkəmizə qarşı qərəzli mövqe sərgiləndiyinə işarə idi. Dövlət başçımızın "Bir məsələni dəqiqləşdirim: "Avropa Komissiyası tərəfindən Ermənistana təqdim ediləcək paketin həcmi 2,6 milyard dollardır, Azərbaycana isə sizin qeyd etdiyiniz kimi, 140 milyon. Yəni, fərq, təqribən, 20 dəfədir" – bildirməsi dünyada baş alıb gedən ikili standartların növbəti təsdiqindən xəbər verirdi. Möhtrəm Prezidentimiz bu yanaşmanın ədalətsiz olduğunu hər iki ölkənin real ehtiyaclarına ziddiyət təşkil etdiyni bildirdi.

Adama elə gəlir ki, Avropa İttifaqı sanki Ermənistanın 30 il ərzində Azərbaycan ərazilərində törətdiyi vəhşilikdən, talançılıqdan, viranəlikdən xəbərsizdir. Dövlət başçımızın qeyd etdiyi kimi, hətta azad olunmuş ərazilərdə Ermənistan tərəfindən törədilmiş dəhşətli dağıntıları kənara qoysaq belə, hər iki ölkənin əhalisinin sayına nəzər salsaq, görərik ki, fərq 5 dəfədən çoxdur. Azərbaycanın əhalisi 10 milyon, Ermənistanınsa 2 milyondur. Bundan əlavə, işğal illəri ərzində ərazilər tamamilə dağıdılıb. Bu gün əcnəbi vətəndaşlar və jurnalistlər həmin ərazilərə səfər edəndə dağıntıların miqyasını öz gözləri ilə görürlər. Eyni zamanda, hesablamalara görə, həmin ərazilərə 1 milyona yaxın mina basdırılıb. Minaları təmizləmə prosesi olduqca baha başa gəlir və çox vaxt aparır. Ermənistanda heç bir dağıntı yoxdur. Bu ölkə işğal edilməmişdi, o, özü işğalçı idi. Fiziki cəhətdən belə Ermənistanın iqtisadiyyatı bu nəhəng həcmli paketi mənimsəyə bilməz. Möhtərəm Prezidentimiz bir daha diqqətə çatdırdı ki, belə yanaşma çox təəccüblüdür və bu paket elan edildikdən sonra, Avropa ittifaqı Şurasının prezidenti Şarl Mişelin bu yay Azərbaycana səfərindən sonra biz bu mövzunu daim müzakirə edirik. Biz istəyirik ki, yanaşma vahid standartlara əsaslansın. Biz ədalət istəyirik və əlbəttə, Azərbaycana eyni şərtlərlə, eyni həcmdə vəsaitin verilməsini istəyirik.

***– Minalardan söz düşmüşkən, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə həyata keçirdiyi məkrli niyyətlərindən biri də həmin ərazilərin minalanmasıdır. Bu məsələ də müsahibədə öz əksini tapdı.***

– Bəli, bu məsələ italiyalı jurnalistin də diqqətindən yayınmadı. Onun dövlət başçımıza ünvanladığı suallardan biri də bu məsələ barəsində oldu. Dedi ki, minaların təmizlənməsi çox həssas, vacib və strateji fəaliyyətdir: "Həqiqətən də, azərbaycanlıların azad olunmuş ərazilərə geri dönməsi və məskunlaşması arzu olunursa, həmin ərazilərin təhlükəsizliyi təmin edilməlidir. Bu səbəbdən, mən təəccübləndim. Minaların təmizlənməsi kimi həssas bir məsələnin Avropa İttifaqını daha öncə hərəkətə keçməyə vadar etməməsi Sizi təəccübləndirirmi?"

Əslində, dövlət başçımız bu məsələni dəfələrlə qaldığını və Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə keçirdiyi görüşdə də müzakirə etdiyini bildirdi. Möhtərəm Prezidentimiz, hətta həmin görüşdə təklif etdi ki, Avropa Komissiyası özünün fondları vasitəsilə Azərbaycanda minalardan təmizləmə prosesinin maliyyələşdirilməsini nəzərdən keçirsin: "Dedim ki, pulu bizə verməyin, minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə maliyyə yardımı ayırın ki, onlar Azərbaycana gəlsinlər və işə başlasınlar. Çünki Azərbaycan üçün fiziki olaraq bunu qısa müddətdə etmək mümkün deyil. Bundan əlavə, bu, çox bahalı işdir və siz tamamilə haqlısınız ki, minalar təmizlənməsə, biz insanların geri qayıdışını təmin edə bilmərik. Onlar bunu 30 ilə yaxındır ki, gözləyirlər. Hazırda genişmiqyaslı bərpa işlərinə başlanılan ərazilər minalardan təmizlənib, digər yerlər isə yox. Yəni, geri dönəcək insanlar ciddi problemlər və həyati təhlükə ilə üzləşəcəklər".

Dövlət başçımız mövqeyini bir daha açıqladı: "Bizim mövqeyimiz ondan ibarətdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır".

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 22 dekabr.- S.9.